**1. F.Əmirova məxsus olan əsərlərin ardıcıllığını müəyyən edin:**

1. Simfonik muğam
2. Opera
3. Balet

a. "Min bir gecə"
b. "Sevil"
c. "Şur"
d. "Kürd-Ovşarı"

A) 1-c,d; 2-b; 3-a
B) 1-c; 2-b,d; 3-a
C) 1-a,b; 2-c; 3-d
D) 1-b; 2-a,d; 3-c
E) 1-c,b; 2-a; 3-d

**2. Bəstəkarların əsərlərini müəyyən edin:**

| | |
|---|---|
| 1. Cüzeppe Verdi | a. "Porgi və Bess" operası |
| 2. Cakomo Puççini | b. "Karmen" operası |
| 3. Jorj Bize | c. "Riqoletto" operası |
| 4. Corc Gerşvin | d. "Toska" operası |

A) 1-a, 2-d, 3-b, 4-c
B) 1-b, 2-a, 3-c, 4-d
C) 1-a, 2-b, 3-c, 4-d
D) 1-c, 2-d, 3-b, 4-a
E) 1-d, 2-c, 3-a, 4-b

**3. Verilmiş musiqi parçasını müəyyən edin:**



A) "Atakişinin kupletləri"
B) "Anitranın rəqsi"
C) "Əsgərin ariyası"
D) "Cahan xalanın kupletləri"
E) "Ölkəm" romansı

**4. Rus bəstəkarı Aleksandr Borodinin əsərinin adı düzgün verilmiş variantı seçin.**

A) "Madriddə gecə" uvertüra
B) "Orta Asiyada" simfonik lövhələr
C) "Sərgidən şəkillər" fortepiano silsiləsi
D) "Mazepa" operası
E) "Aleko" operası

**5. "Ballada" nəyə deyilir?**

A) zarafatyana kiçik instrumental musiqi əsəri
B) tarixi, mifik və qəhrəmanlıq mövzusunda lirik-epik xarakterli rəqsvari əsər
C) dörd vokal ifaçının birgə ifası
D) yüngül və zərif rəqs
E) Polşa xalq rəqsi

**6. Yarandığı gündən etibarən Dövlət Xor Kapellasına kim rəhbərlik etmişdir?**

A) Vasif Adıgözəlov
B) Eduard Novruzov
C) Yalçın Adıgözəlov
D) Gülbacı İmanova
E) Sevil Hacıyeva

**7. "Ölkəm", "Sual", "Seyran", "Çadra" romansları hansı bəstəkarın yaradıcılığına aiddir?**

A) Ramiz Mustafayev
B) Asəf Zeynallı
C) Vasif Adıgözəlov
D) Səid Rüstəmov
E) Süleyman Ələsgərov

**8. Aşağıda adları qeyd edilmiş əsərlər hansı janrda yazılmışdır?**
**"Durna", "Hacı Qara", "Hacı Kərimin aya səyahəti"**

A) operetta
B) balet
C) opera
D) kantata
E) simfoniya

**9. Sol major qammasında neçə işarə var?**

A) işarə yoxdur
B) 1
C) 2
D) 3
E) 4

**10. Hansı Azərbaycan bəstəkarı "Qarmon və Simfonik Orkestr üçün Konsert" əsərini yazıb?**

A) Tofiq Bakıxanov
B) Asəf Zeynallı
C) Fikrət Əmirov
D) Tofiq Quliyev
E) Azər Dadaşov

**11. "Bayatı-Şiraz" muğamı əsasında orqan aləti üçün hansı bəstəkar əsər yazmışdır?**
A) Nazim Əliverdibəyov
B) Ramiz Zöhrabov
C) Oqtay Rəcəbov
D) Xəyyam Mirzəzadə
E) Firəngiz Əlizadə

**12. "Vətənlə vidalaşma" polonezinin müəllifi kimdir?**
A) Robert Şuman
B) Mixail İvanoviç Qlinka
C) Mixail Oginski
D) Rəşid Şəfəq
E) Elnarə Dadaşova

**13. Hansı musiqi nümunəsi "Arşın mal alan" operettasında səslənir?**
A) "Vəli və Tellinin dueti"
B) "Ənzəli" rəqsi
C) "Qoçuların xoru"
D) "Məşədi İbad və Rüstəm bəyin dueti"
E) "Hind gözəlinin rəqsi"

**14. Hansı musiqi əsəri fortepiano, skripka və violonçel musiqi alətləri üçün bəstələnib?**
A) Ü.Hacıbəyli "Aşıqsayağı"
B) S.Ələsgərov "Bayatı-Şiraz"
C) F.Əmirov "Kürd-Ovşarı"
D) S. Hacıbəyov "Hind lövhələri"
E) M.Mirzəyev "Romantik vals-poema"

**15. Polşa xalq rəqsi olan bəndi seçin:**
A) "Mazurka"
B) "Tandava"
C) "Çardaş"
D) "Zeybək"
E) "Tanqo"

**16. "Sərgidən şəkillər" fortepiano silsiləsini kim yazıb?**
A) M.Musorqski
B) Q.Qarayev
C) E.Qriq
D) P.İ.Çaykovski
E) F.Şubert

**17. "Səndən mənə yar olmaz" operettasının bəstəkarı kimdir?**
A) Əşrəf Abbasov
B) Soltan Hacıbəyov
C) Rauf Hacıyev
D) Nəriman Məmmədov
E) Zakir Bağırov

**18. "Hacı Qara" operettasının həmmüəllifləri kimdir?**
A) Vasif Adıgözəlov, Ramiz Mustafayev
B) Ramiz Mustafayev, Səid Rüstəmov
C) Səid Rüstəmov, Vasif Adıgözəlov
D) Tofiq Quliyev, Süleyman Ələsgərov
E) Şəfiqə Axundova, Səid Rüstəmov

**19. Azərbaycanda romans-qəzəl janrının yaradıcısı kim olmuşdur?**
A) Emin Sabitoğlu
B) Üzeyir Hacıbəyli
C) Cahangir Cahangirov
D) Niyazi
E) Asəf Zeynallı

**20. "Mehriban olaq" mahnısının bəstəkarı kimdir?**
A) Şəfiqə Axundova
B) Ağabacı Rzayeva
C) Mehriban Əhmədova
D) Firəngiz Əlizadə
E) Asya Sultanova

**21. "Nizami" simfoniyasının bəstəkarı kimdir?**
A) Fikrət Əmirov
B) Süleyman Ələsgərov
C) Qara Qarayev
D) Cövdət Hacıyev
E) Oqtay Rəcəbov

**22. "Qayınana" musiqili komediyasının bəstəkarı kimdir?**
A) Şəfiqə Axundova
B) Səid Rüstəmov
C) Zakir Bağırov
D) Süleyman Ələsgərov
E) Rauf Hacıyev

**23. Bir melodiyanın eynilə gecikmə üsulu vasitəsilə ikinci səs tərəfindən ifası necə adlanır?**
A) kanon
B) akkord
C) qamma
D) tetraxord
E) forşlaq

**24. "Ürəkçalanlar" musiqili komediyasının bəstəkarı kimdir?**
A) Fikrət Əmirov
B) Səid Rüstəmov
C) Soltan Hacıbəyov
D) Rauf Hacıyev
E) Tofiq Quliyev

**25. Hansı Azərbaycan bəstəkarı "İki ürəyin dastanı" baletini bəstələyib?**

A) Polad Bülbüloğlu
B) Arif Məlikov
C) Firəngiz Əlizadə
D) Aqşin Əlizadə
E) Əfrasiyab Bədəlbəyli

**26. Bemol tonallıqlarını seçin:**

| | |
|---|---|
| 1. Fa major | 5. Lya minor |
| 2. Do major | 6. Si minor |
| 3. Re major | 7. Lya major |
| 4. Re minor | 8. Sol minor |

A) 2, 6, 7
B) 1, 4, 8
C) 1, 3, 5
D) 2, 4, 6
E) 5, 7, 8

**27. Aşağıda adları verilən şəxslər hansı ortaq ixtisasın sahibidirlər?**

Yalçın Adıgözəlov, Teymur Göyçayev, Rauf Abdullayev, Gülbacı İmanova

A) dirijorluq
B) bəstəkarlıq
C) vokal ifaçılıq
D) müğənnilik
E) xanəndəlik

**28. "Füzuli" kantatasının bəstəkarı kimdir?**

A) Arif Məlikov
B) Cahangir Cahangirov
C) Müslüm Maqomayev
D) Xəyyam Mirzəzadə
E) Oqtay Rəcəbov

**29. "Süita" nəyə deyilir?**

A) Fransız sözü olub, "ardıcıllıq" deməkdir, çoxhissəli instrumental əsərə süita deyilir.
B) Böyük musiqi-vokal əsərinin yazılı mətninə süita deyilir.
C) Vokal rəqs səhnələrindən və danışıq epizodlarından ibarət komediya məzmunlu musiqili səhnə əsərinə süita deyilir.
D) Notları birləşdirən qövs şəkilli işarəyə süita deyilir.
E) Səslərin qırıq-qırıq ifasına süita deyilir.

**30. Ağır templəri seçin:**

1. Adajio
2. Presto
3. Allegro
4. Andante
5. Largo
6. Vivace

A) 2, 5, 6
B) 1, 3, 4
C) 1,3, 5
D) 1, 4, 5
E) 2, 3, 6

**31. Bəstəkar N.Rimski - Korsakovun əsərlərini seçin:**

1. "Sehrli fleyta"
2. "Mazepa"
3. "Qar qız"
4. "Aleko"
5. "Sadko"
6. "Çar Soltan haqqında nağıl"

A) 2, 3, 5
B) 2, 4, 5
C) 1, 4, 6
D) 1, 3, 6
E) 3, 5, 6

**32. Anlayışlardan biri *səhvdir:***

A) Balet musiqili-xoreoqrafik tamaşadır.
B) Q.Qarayev "Mən sizi sevirdim" romansını bəstələyib.
C) "Yevgeni Onegin" operasını P.İ.Çaykovski bəstələyib.
D) T.Quliyev "Görüş" filminə musiqi yazıb.
E) "Çənlibel" xoru "Şah İsmayıl" operasındandır.

**33. "Qanun və fortepiano aləti üçün Poema" əsərinin bəstəkarı kimdir?**

A) Süleyman Ələsgərov
B) Fikrət Əmirov
C) Səid Rüstəmov
D) Arif Məlikov
E) Asəf Zeynallı

**34. Vasif Adıgözəlovun bəstəkarı olduğu oratoriyaların adı *düzgü*n verilmiş variantı seçin:**

a) "Şuşam, layla"
b) "Segah"
c) "Qarabağ Şikəstəsi"
ç) "Novruzum"
d) "Natəvan"
e) "Çanaqqala-1915"

A) a, c
B) b, d
C) b, ç
D) d, e
E) c, e

**35. "Çernomorun marşı" nömrəsi hansı operadandır?**

A) Sergey Raxmaninov "Aleko"
B) Mixail Qlinka "Ruslan və Lyudmila"
C) Pyotr İliç Çaykovski "Yevgeni Onegin"
D) Nikolay Rimski-Korsakov "Qar qız"
E) Sergey Prokofyev "Hərb və sülh"

**36. "Kantata" nədir?**

A) Simfonik orkestrin müşayiəti ilə ifa edilən
B) vokal rəqs səhnələrindən və danışıq epizodlarından ibarət komediya məzmunlu musiqili səhnə əsəri
C) Çoxhissəli təntənəli xarakterli vokal simfonik əsər
D) Vokal instrumental musiqili dram əsəri
E) Musiqili xoreoqrafik tamaşa
F) Böyük musiqili-vokal əsərin yazılı mətni

**37. "Xabanera" hansı xalqa məxsus rəqsdir?**

A) Alman xalq rəqsi
B) Kuba xalq rəqsi
C) İtalyan xalq rəqsi
D) Portuqal xalq rəqsi
E) Yunan xalq rəqsi

**38. Vokal musiqi janrlarına aid olan bəndi seçin:**

A) opera, etüd, vals
B) ballada, opera, prelyüd
C) romans, mahnı, kantata
D) madriqal, alleqro, skertso
E) konsert, simfoniya, sonata

**39. Aşağıda adları verilən şəxslər hansı ortaq ixtisasın sahibidirlər?**
Teyyub Dəmirov, Kamil Vəzirov, Zakir Mirzəyev.

A) qarmon ifaçılarıdır
B) tarzənlərdir
C) kamança ifaçılarıdır
D) saz ifaçılarıdır
E) xanəndələrdir

**40. Bəstəkarlardan hansı "orqan" musiqi aləti üçün daha çox musiqi əsəri bəstələyib?**

A) Y.Haydın
B) L.V.Bethoven
C) İ.S.Bax
D) V.A.Mosart
E) F.Mendelson